Mir Çal

Saqlam Jollarda

22

AZƏRNƏŞR - 1932

MIR ÇƏLƏL

SAĞLAM YOLLARDA

(*OCERQLƏR*)

M.F.Axundov adına
Azərbaycan Milli
Kitabxanası

Bakı – 1932

Müəllifi:
MİR ÇƏLƏL.
Redaktoru:
Əb. SADİQ.
Texredaktoru:
Z. AĞAJEV.
Buraqışçı:
H. RƏHİMOV.

Baş Nəşriyyat Müdirliyi Mүvəkkili 7297 ADN 385 Sifariş № 1069 Tirajı 3000.

İstehsalata verilmiş 5/XI-1932. Çapa imzalanmış 3/XII-1932.
Çap listi 3. Kağızın formatı 82×110.
Əzərnəşr mətbəəsində basıldı.
Bakı Bolşoj-Morskoj və Qrasno-Presnenski küçələrin tinində № 16/36.

Saqlam yollarda.

Biz, nəqliyyat yoqluqundan iki gün geçikdik. Bu səhər soyuq və qar tə'sirinə baqmayaraq, rayondan çıqırıq. Tələsmək bilməyən və yerin yapışqanlı palçıqından dartınaraq, yerləşən bir kəl arabası xəstə və yoruçu səsilə bizi kəndə gətiryr. Yollar, maqaralar kibi dolaşıqlı və uzundur. Kəndin əsrlər boyu özbaşına davam edən yüryşy cətinliklərə gəyıs verməmiş, kicik bir təpə, alcaq bir qaya qarşısında yana burularaq, yumşaq topraqları basmış, «yüngyl myqavimət yolu ilə» getmişdir. Bu qıvrımlı yollar piyada və yerli dillə desək «çıvraq» kəntlilərin ayaqına dolaşır. Onlar buna darılır tərs keçi kibi, kəsmələr, kecidlərdən aşırlar. Bu «tərslik» yəqin ki, kəl arabasının «ş ə n i n ə» yaraşmayan şeyidir. Biz, kəhnə kənt «özbaşınalıqı»nın çızdıqı xətti sonuna qədər tapdamalı, ayaqlamalıyıq. Saqımızda dərələrin səsindən gumbuldayan qoça dəvə belli, uzun ətək « I n ç ə » daqı! Bu daqın yamaçlarında qurulan daqlı, coban dəyələri korlar kibi aşaqı, dyzlyklərə, dəmir yoluna baqır. Solumuz şərid kibi uzanan kəhnə Qaramərjanın çıplaq xarabalıqı, səkyk binevrələr, ortalıqda yazı taxtası kibi duran qara divarlar... Biz, bu divarlarda kəhnə dynjanın maçəralarını, mysavat və daşnaq dəstələrinin tərətdigi milli qırqınları oqujuruq...

Soyuq bizi byryşdyrmyş, kiciltmişdir. Arabada adam yoq, iki yumru yumaq görynyr. Arabacı qara nazik boqazını qısına cəkmiş, aqzından buqı pyskyrən Salman kişi isə kəllərlə məşquldur. O, yaxşı diqqətli, sayıq «şofer»-dir. Yolların topraqını özy təkmyş kibi, bələd və tanışdır.

Mən dutqun havanın şehindən ıslanmış, əziz dəşkəmiz olan jumşaq otun yzərində Salman kişijə tərəf syryrəm. Kyləkdən qorumaq ycyn jaxamı qaldrır, səzymy lap qulaqına dejirəm:

— Nijə səhbət eləməjirsən? O, gəzynyn uçilə məni syzərək e'tinasız:

— Səhbət sizdədir icərilərdən gəlmisiniz, məndə nə səhbət,—dejir.

Mən, bəlkə də rəsmi işlərdən danışmaqda o qədər usta olmadığını zənn edir, mynasib mevzu arajıram:

— Necə jaşın olar Salman dajı! Bu suala o qət'i çavab verməgə cətinlik cəkir. Gəzlərini kəlin belinə enən əjri coq işlənmiş uzun parlaq cubuqundan ajırmajaraq danışır. Bu sualla mən onu gerijə cəkdigimi hiss edir. Gəjsyny ətyrərək, ilavə edir.

— Doqrusu ilini dejə bilmərəm. Baq bu kəhnə Qaramarjanın oqlan vaqtını gərmyşəm: gərdygynyz o başdakı ucuq divar bir çəlladın xarabası idi. Baş aqrısı olmasın o, zaman, put joqdi, batman danışarlardı, açlıq ili bir batman arpaja 21 gyn işləmişəm. Kylfətim joq, subaj-soluq, siz jaşda oqlan idim. Xəzəjnim, pajıza cıqanda, məni qapıdan qovaladı. Gedəsi bir jerim joqdi, bu evlərin jejəsinə nökər oldum, arpanı su daşında dəjyr, saçda bişirib jejirdim, getsin gəlməsin, o, gynlər jadıma dyşəndə ətim ərpyr, tykym biz-biz olur, papaq başımda durmajır...

Salman kişinin səhbətilə biz, joruçu, jorqun arabanın təkərlərindən qopan səsləri unudub, usta bir natiqi dinləjir kibi diqqətlərimizi toplajırıq. Onun yslubunda kənt sakitligi və ehmallıqı hakimdir. Ifadəsinin sadə və təbiiligi qaraqterikdir; o səsini dəjişərək, davam edir:

— Siz dynənin uşaqlarısınız. Siz xoşbaxt adamlarsınız. Şura həkymətinin vaqtında bəjyjyb, quçaqında böyüyürsüniz, Istiot dadmamısınız, isti sojuq görməmisiniz, hər sejin hazırına gəlibsiniz.

—Salman dajı—dejirəm—sən bizi o qədər də «hazırına baş» olan sajma! Biz bilirsən ki, qomsomolcujuq. Lenin joldaş yzərimizə aqır və böjyk vəzifələr qojmuşdur. Bu jolda biz calışırıq, dinçəlməjirik, biz, hazırın jejələnmək dejil, joqdan jaratmaq istəjirik...

O, mənim səzymy kəsərək:

— Joq—dejir—joldaş mən demirəm ki, siz bekarsınız; bu saat zamana elə gətirib ki, balaça uşaqlar da ijit olmuşlar. Hamı calışır. Ançaq hec vaqt sən bizim kibi alav udub, vərəm jeməmisən, ölymy gəzymdə gəzdirmişəm. Bəbəgimlə öd yfyrmyşəm, bu, qadasın aldıqını Şura hökyməti, daqıtdıqı Xosrovbəjlərin qamcısı anadan əmdigimi burnumdan tökyb, bilməjirsən faqır-fyqara nə gyn göryrdy. Kyrəgim zolaq, zolaqdır, indi də jeri durur.

Səhbət uzaq jolun nərdibanıdır, dejirlər. Salman dajının «vintini» burduqdan sonra kəsməjir, bizə maçal verməjərək danışır, o, hətta yzyny bizə cevirmiş, kəlləri ara bir saldıqı haj-kyjlə syryr. Joldaşım onun indiki mevqeindən səhbət acmaq, danışıqını istiqamətini dəjişmək ycyn «Xosrovbəj»lərin nə ycyn kəntlilərə gyn vermədigini, soruşur. O, bu suala qısa və doqru çavab verir:

— Çanavarın xasijjəti daqıtmaq, jeməkdir.

Mən onun sijasi savadının joqlajır kibi:

— Nə ycyn joqsul, muzdurlar hamısı bir jerə jıqılıb bir ovuç, elə çanavarları daqıtmajırdınız? Dejə ona qəribə gələn bir sual verirəm. Səlman dajı, dynən savadsızlıqının ləqv etmiş bir qolxozcudur. O, qolxoz coçuqları pionerlərin iməçilikdə topladıqları fajdalı qırıntıları rajonda təhvil verərək, qajıdır. Mən bu, simadan sadə, fəqət həqiqətdə ləngər kibi aqır, qismən də qapalı olan qolxozcunun sualına çavab verəçəginə inanmajırdım. Lakin, mən janıldım. O, belə çavab verdi:

— Əçəb «poltik» *) oqlansınız, nəjimizlə birləşə idik? Qanan kimdi? Nə qojub nə aqtarırsan. Hərə özbaşının, çanının qajdına qalmışdı. Işçilər gəlməjirdi. Şəhərdən indiki kibi gəlib bizi ajıldan nə gəzirdi? Onun əvəzində hər kəsə janaşırdıq, zərər cəkirdik. Hər kəsə əl verirdik, barmaqımız əksilir, başımızın qapazı artırdı. Mollası:

1) Sijasətci «poltik».

«Get rajatsan (rəijjət) rajatlılıqına! Get bu dynjada nə qədər zillət olsa dөz, axirətdə əvəz alarsan» dejirdi.

J y z - b a ş ı s ı əzraildi. «**Koxanı gөr kəndi cəp**» eşitməmişsinizmi? Bəjlərlə danışmaqmı olardı. «Kəntli coqdur, amma bəj azdır» dejə hөkymət bizi qırqına duturdu. Bəjin bir tojuquna iki baş kəsilirdi. Aqşamın jorqunluqilə jatıb səhərin qorqusu ilə dururduq. Icimizdə baş biləni iş gөrəni geçə ilə dutub ilim-ilim itirirlərdi. Izi-tozu bilməjir, balaları mələr qalırdı. Saq olmuş aqzın isti jerdədir, bizi birləşməgə caqıran birləşməgə qojan kimdi?...

Gyn jeni əjilir, hava səhərki kysgynlygyny pərdə kibi atdı, gənçligin qəlbi kibi acılır, gylyr, ışıqlanır, iki saat əvvəl bizim ycyn qapalı olan yfyqlər acılır. Sejrək bulutları bicərək, kecən gynəş şyaları bizim əksimizi uzun kөlgələrdə əks etdirir. Biz artıq kəntdəjik.

***

Budur 9 ajdır ki, «Caj arxı» muzdur və əməkci kəntlilərin Binəqədi işcilərinin caqırışının imzaladılar, **128 adam** səs-səsə verib qolleqtivləşmə bajraqı altına toplaşdılar. «**Binəqədi işcisi**» qolxozu simasında jeni əmək və həjat məktəbi binevrəsi qojuldu. O zaman kəntdə fikirləşməjən adam joqdu. Dost-dyşmən hamı dyşynçədə idi. Muzdur və joqsullar qonşu «Şıxlı» qolxozundakı qommunizmə gedən həjatı gөrərək, qolxoz qurduqlarına şadlanır, nə ycyn daha tez bir-iki il əvvəl bu ışıqlı jolu dutmadıqlarına təəssyf edirdilər. Kəndin qarnı joqun hampaları qolxoz fikrinin hansı şejtan tərəfindən bu kəndə gətirildiginə janıb qovrulur, qudurur qolxoza doqru gedənlərin jolunda hilə və aldatma tələsi qururdular. O zaman hamı danışır, hamı fikirləşir, dejir, hətta hər kəs dedigində məhkəm dajanaraq, qarşısındakı ilə dalaşırdı da.

Dyşmən aqzı xəlvətdə cuval kibi acılmışdı. Qolcomaqlar hər jerdə:

«Azaçıq aşım, aqrımaz başım», «iki qardaş bir jol getməjir, bu qədər adamın aqzının neçə bir jerə jıqışdırmaq olar?» Dejə gurultu qoparmaqa başlamışdı. Bu qorqu və tərəddydlərə qarşı məhkəm və mis kibi çingildəjən bir mətanət durmuşdu: Niçat qolxozdadır, biz qolxozlarla hampanı joq edəçəgiz, өldy var dөndy joqdur!»

Bu səs kəndin iləridə gedən qommunist ruhlu muzdur və joqsullarının səsi idi. Salman dajı bu çəbhədə idi. Hər kəllədən bir səs gəlirdi. Şıxlı qommunasından tə'limat ycyn caqırılmış mə'ruzəcinin sөzləri gah alqışlarla gah da: bojlanaraq, diqqətlə dinləjənlərin icinə girib işə pəl vurmaq istəjən dyşmən və qujruqlara vurulan qolleqtiv zərbə səslərilə kəsilirdi. Bu jıqınçaqa kəndin arvat və uşaqları da gəlmişdi. Gizli və acıq syrən mybarəzələrin şiddəti icərisində e'tiraz və tərəddydləri rədd edən qanaçaqlı və Lenini sevən kənt proletariatı anladı ki, qolxoz **jeni kəndin yrəgi, dirəgidir,** ançaq qolleqtivləşmə ilə kəndin cyryk binevrələrini sөkyb «insanlıqı qapital təzjiqi, jalan, saxtakarlıq və aldatmalardan azad etmək» (Lenin) mymkyndyr. Onlar anlamaq ilə kifajət etmədilər, həm də əmələ, işə başladılar; əsrlərlə muzdurlar, joqsulların iligini icən, symygyny gəmirən, ətini jejən hampalara kəndin inqilabcı, əməkci qyvvələrini birləşdirməklə çavab verdilər. Ortabablar xysusi malikijjət baqlarını dөqradı. «Caj arxında» əməgin istismara qarşı məhkəm bir qalası, səngəri dikildi.

***

Tarla zərbəcilərinin arasındajıq: qolxozun jorulmaz sədri Kərim, mədəni inqilabın kənt tə'limatcısı Mahmud, Lenin qomsomolları Çəmilə, Sə'dulla, Məçid, Səid..... Dəli və azqın dərədən dolanbaçılı jollarla hyçum edən bulanlıq selləri; əkinləri, tikinləri basması, uşaq aparmasına dөzməkmi olar? Qolxozcuların dөnməz iradəsi və qurtarıçı əllərilə aqınlara son qojuldu. Onlar 14 gyn calışdıqdan sonra selin aqzının kənədləmiş, «Gөjcaj»ın kənarının məhkəm bəndlərlə hasarlamışlardı. Dabanlarının jerin çijərinə dirəjən dəmir və qırmızı kөpry, indi Gөjcajı cıdarlamış, boqmuşdur. Sellər jataqı olan uzun-uzadı qumlu topraqlarda imdi pambuq bitirmək tədaryky gөrylyr. Seldən ehtijat etmədən dərə sahillərində qolxozcular tikin-

tijə başlajьrlar... Onlar bu aqşam bizim ətrafьmьza jьqьlaraq, işləri və jaradьçьlьqlarьndan danьşьr, bə'zən də «mərkəzdən gəlmisiniz, təhkimcisiniz!» dejə haqlь tələblər verirlər.

— Rajon maşьn-traqtor stansijasь qьş şumu ycyn bizə kəməklik etmək əvəzinə jalan satmьşdьr. Iş hejvanlarilə əkməgə qojmajaraq, bizə traqtor və'də verdi, amma kəndə hec bir şej gəlib cьqmadь.

Topraq şə'bəsi «təklər» ilə qolxozun jerini dyzgyn bələ bilmədi, bizi hələ də syryndyryr.

— Kənt şura sədri qohumlarьnь qolxoza çəlb etmək fikrində dəjil, qolxoza əgəj ana kibi baqьr, ançaq vergi jьqmaqa qocaqdьr...

Biz, onlarьn bu tələblərinə gəz juma bilməzdik. Maşьn-traqtor stansijasьnьn jumru və qьrmьzь mydiri X m a r a, danьşanda bizə maçal verməjir. Sinəsini iləri verib, xərcək kibi capalajьr, radiodan cьqan, qejri təbii səsilə e'tiraz qaldьrьr. «**Bizim kəntdə dejilən sözlərə inanmajьnьz!**».

— Kəntlilər hələ anlamajьr, traqtorun nəfini qanmajьrlar. Mən deməkdən joruluram dilimi də cətin başa dyşyrlər, qadro da joqdur. Hanь? Birçə nəfər jaxşь traqtor syrən joqdur. Bu rajona MTS artьqdьr. Mən kəcyryrəm MTS-i ajrь jerə aparьram.

Xmara əz-əzynə qьzaraq:

— Uqrajnada, dejir, MTS-nьn başьna dolanьrlar, burada hec maraqlanan joqdur. Bu nədir mən demişəm sabah da kəcyrəm...

Biz maraqlь qəribə, bir tiplə qarşьlaşьrьz. O, rusça danьşьr, tyrkçə anlamajьr. O, istəjir ki, jetirən kibi kəntlilər MTS-nьn mənfəətini əzbaşьna anlasьnlar. Bunu əz vəzifəsi sajmajьr. Uqrajnada olduqu kibi hazьr qadrolar istəjir, javaş-javaş hazьrlamaqa da çan cəkir. Gədəji: MTS-ilə qolxozcular arasьnda istənilən rabitə joqluqu bizə ajdьndьr. Əkin briqadiri Taqь kişi belə dejir:

— Başьnьz haqqь iki ajdan coqdur bu kişi buraja gəlmişdir iki dəfə o dəmir-dymyry arabalarda vaqzala daşьtdьrьb, sonra da geri! 18 traqtordan ikisi işləjir, birinin vinti burulan kibi dyzdə qojub qajьdьrlar...

Təhkimci Sərkisjan joldaş MTS-nьn işini jenidən qurmaqь əhdəsinə alьr; o, bolşevikdir səhərisi gyny qyvvələri toplajьr, işə salьr, Xmara ilə xudafizləşir.

Joldaşьm, Məçid, topraq şə'bəsinə jyjyryr. Jerlərin plan yzrə myəjjən edilməsini syryndyrənləri myəjjən etməgə gedir. Mən isə kənt şurasь sədri Əbdylhəmidi jaqalajьram.

— Əbdylhəmid joldaş, dejirəm, səjlə gərək bu qvartalda Şura, qolleqtivləşmədə nə iş gərmyş? O, balaça gəzly, iri sifətli 35—40 jaşlarьnda gevdəli bir adamdьr Cənəsilə aqaçьna səjkənərək duruxa-duruxa çavab verjir:

— Qolxoz, bilirsiniz, bizdə hələ təzədir o, qədər bərkiməmişdir... Nə bilim içlaslarь eləjirik, jerin jaxşьsьnь onlara veririk...

— Qolxozun boju neçə artьr?

— Artьr da!... Girmək istəjənlər gəlir girir, elə biz də məsləhət gəryryk ki, girsinlər. Cynky Şura həkymətinin elə məqsədi də budur.

Mən oqu şəxsi tənqidə duturam:

— Bilməjirsənmi, a kişi, dejirəm, Şuralarьn əsas işi qolxozlarь təsərryfat, təşkilatça bərkitməkdir? Şura bu barədə hec bir iş gərməmişdir. «Qolxoz kəntdə hələ təzədir» dejə jaqanь qьraqa cəkmək istəjirsən, təzədir bəs kim məhkəmlədəçək, əlbət ki, jerli həkymətin işidir. Kəndin bu qədər muzdur, joqsul aqtivi var biz bunlarь jьqьb danьşmaq, onlarьn təkliflərinə əməl etmək olmazdьmь? Sən işini vergi jьqmaq, çərimə etməkdən ibarət bilirsən. Kytlələrı tərbijələndirmək sənin əsas işindir. Sən əzbaşьnalьqa umud edib qolxoza gəlmək istəjənləri bir quru alqьşlamaqь da baçarmajьrsan ki...

O, noqsanlarьnь bojnuna alьr, yzvlərin kəmək etmədigindən, təkligindən şikajətlənir.

Mən—firqəcilərədə demişəm gərək siz, əzynyzy jьqьşdьrьb işə bərk japьşasьnьz. Baq, biz burada sizin kəməkçinizik, cətinlik olanda kəməgləşib rəf' edəçəjik. Ançaq

jatmaq, bu gyn-sabaha salmaq olmasьn pambuqu jьqaçaqьq, qolxozun qyvvəsini bərkidəçəjik, daxili vəsajiti jьqaçaqьq, əkini artьraçaqьq, təkləri, joqsul, muzdur, ortabablarь qolxoza çəlb edəçəjik, kytləni tərbijələndirəçəjik. Bu jolla da qolcomaqa zərbəni artьraçaqьq.

Budur, bizim burada sizlə aparaçaqьmьz işlər! Bu, nojabr ajь, bizim zərbəli ajьmьzdьr. Hər gynyndə bir illik məs'ulijjət dujmalьjьq....

**
*

Kənt aqaçlьqlarla ərtylmyşdyr. Aqaçlar arasьndan majaq kibi jyksələn məktəb binasь və burada bəjyjən gənç nəslin jeni hərəkəti dujulur. Biz bu aqşam qolxozun illik hesabatьnь dinləjirik. Ara qapьlar acьlьr, lampalar kəmək-ləşərək gələnlərin gylər yzyny tunç hejkəl kibi ьşьqlandьrьr, şьltaqcь kənt coçuqlarь əjləşənlərin arasьnda çyçə kibi dinçəlməjirlər. Getdikçə səs coqalьr. Otaqlardakь maraq və hərəkətdən bir gurultu hiss olunur. Simasьndan, o qədər də təçribəsi olmadьqь bilinən, fəqət qolxozu ycyn əlindən gələni edən, əzyny işə vərən, varlьqilə calьşan Kərim lələ sijahiləri, dəftərlərilə masa dalьna gəlir, uçadan, çəsarətlə danьşьr:

— 70 arxa, dədə-babadan hec kəs dejə bilməz ki, bu ildən jaxşь gəlirimiz olub, 8 ajda, qolxozda birləşmiş 51 tystyjə 13926 manat 31 qəpik gəlir dyşyr. 25 ton aq qьzьl vermişik. 4 ton da verəçəjik. Həftəni ətyrməmiş citi-qəndi, cajь, cərəgi, taxьlь əksik olmamьş. Qara gynymyz (bəlynməz fond) ycyn 1362 manat, məktəbimiz, qadro hazьrlьqьmьz əlsiz-ajaqsьzlarьmьza kəmək ycyn 1547 manat gəz kibi pul ajьrmьşьq. Borçu verəndən, xarçь cьqandan, hər şejdən sonra 6055 manat duru pulumuz qalьr. Bunu da siz, içlas haraja desə olaja verəçəjik. 2 nəfər hesabdarlьqa, 3 nəfər traqtorculuqa göndərmişik. Iki dəjirmən tikdirib bir baq saldьrьrьq.

1700 manat syd firmasьna qojur, 850 manata istiqraz alьb həkymətimizə borç veririk. 731 manata kənt təsərryfat maşьnlarь sifariş etmişik.

Əmək gynymyzyn biri 4 manata gəlir. Bu 4 manat bazarьn, baqqal, caqqallarьn 4 manatь joq devlətin qьzьl manatь, 30 kəpiginə bir kilo qənd, 40 kəpiginə bir metr cit verilən 4 manatdьr. Tək calьşanda il başьna-əl-ə başda, lyt və ja borçla aç qarьn, həsrət gəzlə cьqan muzdurlar bu il pambuqdan ehtijaçlarьnь kejfin istəjən qədər ədədilər. Elə zərbəcilər var ki, hər dənədə 60—50 metr parca alьrdь. Qolcomaqьn gəzyny təkən şejdə bu, qolxozda, ortaqlь əməgin məhsuldarlьqьdьr...

Kərimin cьqьsь faqtlarьn, rəqəmlərin qələbə nymajisi idi. Öz myvəffəqijjət və nailijjətlərilə diqqətləri çəlb edən mə ruzəci hamьnь: deməgə, noqsanlarь acьb təkməgə «nəştərləməgə» caqьrьr. Qolxoz aqtivi qazan kibi qajnajьb qaja səslənir, biri o birinin dalьnça cьqan mybahəsəcilər, əmək təşkilinin gətyrə ysulun mənfəətindən, iş gynlərinin doqru hesabatьndan, narjadlarьn geç jazьlmasь tərbijəvi, içtimai jaşajьş məsələlərinə az əhəmijjət verildigindən danьşьr, qət'i qonqret tələblər verir, plan xətti cьqьr, jollar göstərirlər.

Sьralarda bitərəf kibi əjləşən təklər, kecən il sijahi dutulan gyn ara səhbətlərinə ujaraq, **qьraqda qaldьqlarьna** təəssyf edirdilər. Şahpəri xala barmaq qaldьrьr!

— Jaz dejir, oqul məni jaz, qolxoza! Qьraqda qala bilmərəm. Onu izlədən Osman Jahja, Əbdylhəmid, Avcь Əbdyrrəhman..... «Binəqədi işçisi» qolxozunun sьralarь muzdur və joqsullar hesabьna sьqlaşьr, odlu qolxozcu Salam və təbrikləri altьnda 51 təsərryfat qolxoza girir, otaqlarь titrədən gurultulu alqьşlarla qolxozun illik hesabatь təsdiq olunur. Dajirədən gəlmiş qommunist Şьxь, qolxozun qьş şunu və aratьna rəhbərlik ycyn özyny bir aj buraja təhkim edir. Myəllim Mahmud jeni qolxozcularьn savadsьzlьqlьnь joq etməgi bojnuna alьr, jeni qolxozcular isə qolxozda ən irəlidə gedən zərbəci sьralarьnda olaçaqlarьna içlasь əmin edirlər. Dajirənin ən sьnaqlь bolşeviklərindən olan Sərkisjan söz alьr:

— Joldaşlar! Biz cətinlikləri rədd etmək, dəjyşmək carpьşmaq, qalib gəlməgə alьşmьşьq. Bu gynky işimiz si-

jasi, təsərryfat, təşkilat çihətçə qolxozu bərkitməkdir. Binevrələri məhkəmlətməkdir. Kənt təşkilatlarъ qolxoz haqqъnda dyşynməli, өz işlərini qolxozlarъn məhkəmlənməsinə tabe etməlidirlər.

Bəsdir! əvvəllər hansъ kənt əməkcisini dindirəsiniz şikajət edirdi «**biz coq işləjib az jejirik**» dejirdi. Bu dyzdyrmy. Jəqindir ki, dyzdyr! Joldaşlar. Kənt əməkciləri, şəhər sənaje, işcilərinə nisbətən əməgindən coq az məhsul gətyryrdy. Bunun səbəbi nədir. Bə'ziləri: «Şəhər bizi aldadъr, biz işləjirik onlar jejir» dejərdilər. Məsələnin acarъ əsil səbəbi isə başqadъr. Kəntdə istehsal qyvvələri Nuhdan qalma idi. Kəndin ən aqtiv qadъnъ ijnə ilə bir çyt çorab toqujana qədər şəhərin ən tənbəl işci qadъnъ makъnada **1000 çyt toqujurdu.** Şəhər sənajei təbiətin qyvvələrini çilavlajъb istehsalata kəməgə cəkdigi halda kənt işciləri balta, kylyng, xъş, kotandan ileri gedə bilməjirdilər. Sъnfi dyşmən kənt əməkcilərinin diz qapaqъnъ qoparmъş ajaqъnъ buxovlamъşdъ, indi neçə?

Indi isə firqə dejir bəsdir əsir olmaq!

Qolxoz vasitəsilə hampanъ bir sъnъf kibi joq edirik. Nevbə ilə traqtor və qombajnlar gətiririk. Kəndin şəhərdən geri qalmaqъnъ joq edir, «kəntlini traqtora əjləşdiririk» kəntlə şəhər arasъndakъ ucrumu beləçə joq etməgə, tarla əməgini fabrik-zavod əməgi kibi məhsuldarlatmaqa nə qojmuşuq. **Traqtor qapъmъzъn dəmir atъ, qombajn polat hejvanъ olur.** Qolxozcu kəndimiz sosializm sənajeinin plankъ xam mal fabriki olur...

Içlas aqşamъnъn səhəri kənt, jeni umud və təşəbbyslərlə qajnajъr, Salman kişi qъzъl inəgin qulaqъndan dutaraq:

– Gəl, dejir, syt fabrikimizin çanlъ makъnasъ gəl, bu qazma təjlədən, qaranlъq və jalъnъzlъqdan jaqan qurtarsъn!

Qadъnlar, kəhnə məsçidi əfsunlu ajələr, quran vərəqələri, zibil və topraqdan təmizləjir barama torlarъna jer dyzəldirlər.

Qelleqtiv əməklə ruhlanan, qanatlanan qъz və gəlinlər, xalca birligilə baqlanan myqavələnin içrasъna başlajъr, toxuma dəzgahlarъ qururlar.

Quru və kol-koslu jerləri traqtorlar alt-yst edir. Məhsul verməjən topraqlara hyçum başlanmъşdъr.

Pambuq əkinini qurtarmъş zərbəcilər daş topraq gətirir, dirək kəsirlər **180 metrlik jeni qolxoz təjləsi qatar kibi salъnъr,** Qqaçlъqlar arasъndan yzym baqlarъnъ hazъrlamaq və gybrələməklə məşqul olan gənçlərin mahnъ səsi gəlir.

Kəndin başъnda aləmə səs salan traqtorlar qъş şumunu jarъja jetirmişlər. Qolxozun təşəbbys və addъmlarъ gyn-gyndən artъr, adъ bəjyjyr. Kənt kəhnəlikdən təmizlənir, silkinir, dəjişir saqlam jollarda ъşъqlъ gələçək gynəşli sabahlara doqru jyryjyr, burada qommunizm həjatъnъn өzəgi qurulur.

«..... təkçə hazъrlъqlъ bolşeviklər joq, həm də qolxozcu kəntlilər, qolxoz işinin kənt təşkilatcъ və təbliqatcъlarъ qolleqtivləşdirmə bajraqъnъ ileri gətyryrlər» (Stalin).

Qələbənin acarъ.

«.... Toquçu sənajeinin zərbəli briqadasъ, Qasъm Ismailov qolxozcularъ pambuq planъnъ nojabrъn 5-nə 100 fajiz ədəmişdir. Illik planъ 25 fajiz artъq jerinə jetirmək ycyn tarlalara hyçum gedir. Rajona qъzъl bajraq ana sydy kibi halaldъr....»

Siz, Şəhərin sərinligindən bu xəbəri qəzetə sytunlarъnda şirin-şirin oqujub dyşynyrsynyz:

— Kecən il bundan 4 dəfə az pambuq əkib, dəstə-dəstə kəməkcilərlə fevralda da jъqъb qurtara bilməjən rajon; bu dyzlər dolusu əkini nə tez və nə təmiz jъqъdъ? Bu qələbənin acarъ haradadъr?

Mən sizi rajon qolxozcularъnъn ucuşuna caqъrъram. Budur Qolxozsojuzun qabaqъnda tarla zərbəcilərinin alajъ durur. Rajonun uzaq və jaqъn kəntlərindən qolleqtiv zərbəli

iş təcrübələri mübadiləsi üçün açıb gələn qadın və kişi qəhrəmanların gözlərində nida, simasında çiddijjət alınında qələbə oxunur. Onlar bolşevik əməlinin isti sojuqunu dadmış, sosializm kəndinin təməlinə əl qatmış, jeniləşən insandırlar. Öz adlarına qolleqtiv suvarma və bəçərmə dyzəldib məhsul dəjərini jyksəldən və qölxozcu gənçliği plan ətrafında toplajan Lenin qomsomollarъ hyçuma hazırlaşırlar. «Cəldə bir qoza da qalmasın!» şiarı dajirə qomsomolunun təsərryfat proqramıdır. Arslanın erkək dişisi olmaz. Kişilərin 50 kilosuna qarşı gyndə 60—70 kilo pambuq jıqan Xavər və Xejransaların başı daha da uçadır. Pionerlər salama durmuşlar. Budur kyrsyjə çıqan tərli və qırmızı cöhrəli Məlik danışmaq istəjir.

— «Aqamalı oqlu» qolxozu, ajın 25-nə illik plan 28520-jə qarşı 28555 kilo jıqmış jaxşımız 65, zəifimiz 40 kilo jıqır. Biz, mübarəzəni itiladirik.

Borsunlu qolxozcularъ adından qomsomolcu Islam danışır. O, kəntdə firqə tapşırıqlarının sünanmış təşkilatçılarından, özyny kytləjə sevdirmiş, Lenin qomsomolunun dəjərli oqullarındandır.

— Joldaşlar, dejir, 14300 puta qarşı, 14364 put jıqmışıq. 2 gyn artıq işləjərək, 500 put ilavə toplamışıq.

Budjaqov Sarovdan 8000 put təmiz pambuq jıqıldıqını söjləjir... Natiqlərin aqzından rəqəmlər tökylyr. Bu rəqəmlərin hamısından kəsgin mübarəzələr oqunur. Lakin bolşeviklər qələbə rəqəmləri eşitməgə alışmışlar. 518, 1040, 205000 (hektar pambuq əkini) 15337 min ton neft bu rəqəmlər kəhnə dynjanı qalıqlarını joq edir, «kəhnə feodal qalıqlı ölkəmizi aqır sənaje ölkəsinə çevirirriz». «Kəntlini traqtora, SSÇI-ni avtomobilə əjləşdirir» (Stalin) buna baqmajaraq, biz, kifajətlənməjirik.

Mehrab əlində teleqram, danışıq kyrsysyndə gəlynyr. «Mərkəzi Qomitə, Qasım Ismailov rajon firqə təşkilatını, qomsomolcularъ, qolxozcularъ və əməkcilərini ölkənin pambuq asılılıqından qurtarmasъ üçün qəhraman mübarəzəsini təbrik edir. Joldaşlar syr'əti əksiltməjin!» Teleqram gurultulu alqışlarla qarşılanır. Bolşevik stabının

təbriki qolxozcularda jeni mübarəzə hissi, dəjyş ehtirası doqurur. Zərbəci sıralarını sıqladı. Mehrab gələçək hajındadır. O, sakitlik bərpa edib, diqqətləri jıqır:

— Rajon ajın 4-nə 6564 ton 226 kilo illik planı ödədi. Bu qəhramanlıqdır. Qələbəmizdir. Lakin bu qələbədə sojuq iştirak edən joq dəjildir. Sarov kibi azarlı, bezarlı və Abasov kibi qarınqulu qolxozcularımız vardır. Qələbəmizin acarı haradadır. Bu acarı görmək və götyrmək coq asan və vaçibdir: **bolşevik tempi!** Bunun üçün də götyrə işin tətbiqini, kytlənin qolleqtiv əmək qyvvəsinin dyzgyn təşkilini, intizamlılıq, gələçəgi ajdın təsəvvyr etməni, qələbəjə e'timad baqlamaqı baçarmaq lazımdır. Biz bu baçarıqı hamıdan tələb edirik. Bunsuz hərəkət joqdur; bunsuz inkişaf joqdur; bunsuz qızıl bajraqı saqlaja bilmərik. Qasım Ismailov qolxozcuları kəsgin ehtirasla sosializm əməginə sarılmışlar. Orada sosializm kəndinin binevrəsi möhkəm qojulur. Istehsal qyvvələri dəjişir, əmək məhsuldarlaşır, qolleqtivləşir, qommunistləşir. Bu əsasda «ən vəhşi, ən quduz, ən jabanı istismarçı qoləmaq» (Lenin) bir sınıf kibi ortadan götyrylyr. Onlar bu böjyk işləri az vaqtda jaradırlar.

Biz, toquçu sənaje zərbəcilərinin kəməkciləri isə onların, o kəntlərin mədəni nəqlijjat jolu, radio, işıq, böjyk mədəni oçaqlar, pambuq ambarları, kino və teatrla ödənməsinə calışmalıjıq. Onların bu haqlı tələbi bizim vaçib borçumuzdur.

Molotovcular.

— Sən aparsan yzygynyn qaşımı dyşər a aqara Vəli?

— Tylky-tylkyjə bujurur, tylky də qujruquna... Öz vəzifəni nijə xalqın bojnuna jıqırsan.

Sənəm xala məçməidəki cijidi arıdır, ara bir də ətrafdakıların işinə qarışır.

Mən onu tanımırdım. Özyny mənə tanıtdı.

— Biz hələ təzəjik oqul—dejirdi arı kibi bir təhər ujuşmuşuq. Bilirsiniz?... Kəntli dedigin qojun kibi yrkəjən şejdir.

O, qara, qalın və kirli ərtysyny başından acıb sinəsindəki almas kibi tər damarlarını silərək davam edir:

— Kecən il qolcomaqlar min çyrə fırıldaq toqudular. Qolxoza min çyrə jalan dedilər. El yrkdy. Mən özym də avam adamam. Qolxozun xejrini qanmadım. Ançaq odur Stalincilər iki il icində polat kibi möhkəmləşibdir. 4.000 qojunları....200-ə qədər mal-qara... iki traqtor, maşınları... avtomobil, məktəb, xəstəxana baqca... və hər şejləri də onun kibi. Baqırsan aqlın gedir. Doqrudan da adlarına lajiq jaşajırlar.

— Bir az geçikmək—dedim—ejb eləməz. Sənəm xala! işə çan jandırsanız, planı ədəsəniz geri qalmazsınız. Siz də zarafat edəçək adamlar dəjilsiniz. Molotovcularsınız. Stalin joldaşın bir sözu var... «Bolşevik həvəsilə hər şejə catmaq olar və hər şeji də rədd etmək olar».

Sənəm xala sözyny kəsərək, məni anladıqını bildirmək ycyn danışmaqa tələsir. Sol əlilə arıınmış cijit kisəsinə sojkənərək mənə tərəf əjilir.

— Sənəm xalanı lap avam bilmə. Stalin joldaş qızıl kibi söz dejib. Neçə dejərlər cobanın gənly olsa təkədən pendir dutar. El gyçy, sel gyçy, biz həmişə belə qalmajajaçaqız ki, odur 540 hektar pambuqumuz yc gyn qabaqdan əkilib qurtarıb.

—Mən dedigimi siz başa dyşmədiniz. Kəntlilərin coqu qolxoza həkymət malı kibi baqır odur dyrən daqa qalqanda Əməzək Abdulla jeddi qojun saqlajıb ki, «bu özymyndyr, qatmamışam, gəj taxıl da özymyndyr» di gəl bunu qandır ki, balam qolxoz kimindir, özyn kimsən? Bələləri qolxozu qaldırmazlar. Axsadarlar.

Sənəm xala ahəngini dəjişdirir və bir az da əsəbiçəsinə danışır:

—Belə də qolxozcu olarmı? Xoça səndə xurçun məndə, qılıç verib qapını saqlamaq nədir?

Qara Xəlil, sənəm xalanın janına gəlir. O, baş barmaqilə qaljanın kylyny təkdyryr, mənə bir himlə salam verir.

— A! arvat jenə nə doqrajırsan qonaqa? Cijidi qurtardın? Aqşam içlasda jyrəgini boşaldarsan.

— Yrəgimdə nə var nə boşaldaram nə varsa aqzımdadır dejirəm. Mənim yrəgim gymyş kibi təmizdir. Qəj yrəgində çanavar balalajanlar boşaltsınlar.

(**)

Jaz səhəri. Jaşıllıqların arasından lalələr qızarır. Gynəş şua'ları altında şeh damlaları munçuq kibi işıldajır və parlajır. Dynən traqtor və çyt hejvanlarilə qajnaşan zəmilər bu gyn dinçəlir. Kəndin başında qızıl bajraqın altında qolxoz idarəsi jerləşmişdir. Qolxozun mejdançası, qolxozcularla doludur. Qadınlar uzun və ajaqa dolaşan tumanlarını jıqaraq bir-birini basa-basa daha kip oturmaqa calışırdılar. Şejpurcu və təbilcilərin arqasında dyzylən pionerlər «faraqat qomandası eşitmiş əskərlər kibi zarafatlaşırlar. Ara bir uçadan mahnı oqujurlar.

Qolxozcular halaj qurmuşdur. Halajın ortasından qolxozun qarmon səsi diqqətləri toplajır. Hamının gözy rəqs mejdancasına tikilir. Bir təkliflə iləri atılan Sənəm xala su quşu kibi syzyr. Ətrafda jıqılanlar cırtıq vururlar.

Onlar pambuq əkin planının ədənilməsi bajramını kecirirlər. Bu sevinç minlərçə yrəkdən qopur. Bu sevinçdə myəjjən bir qajə oqunur.

Jaşıl kec daqları və sıq Qazax baqcalıqları arasında Kəsəmən kəndi şaxə qalqan bir şəhər at kibi kişnəjirdi.

Səsimizi dynja eşitsin.

Kim nə dejir desin. Qoj pedoloq, profillərini sevə-sevə «coçuqların kejfijjətini tamam ajrı, bəjyklərdən başqa» olduqunu isbat ycyn gyçənsin, qoj saqqalı xınalılar «kiciklərin bəjyk işinə qarışmasına qudursun, qoj Telli xala «zamana uşaqlarının» zatı xarablıqından şikajətlənsin...

Faqt faqtlьqьnda qaiьr. 22 miljon jeni jetmələr, coq miljonluq pioner və gənçlik, kəhnə dynjanъ bolşevik xəttindən topa dutmaqa silahlanьr. Bu gənçligin ənyndə jeni bir aləm parlajьr. Lenin tə'lim tərbijəsini 70 dildə, fəqət bir məzmunda alan SSSR-in jeni nəslini jeni, tarixi, inqilabi jaradьcьlьq, quruçuluq vəzifələri gəzləjir... Bytyn qyvvələr bu nəslin əlində mum kibi jumşalaçaq, hər şej jeni tələbə görə jeni məzmun, jeni şəkil alaçaqdьr. Qytybdən-qytbə, şərqdən-qərbə qoça dynja hazьr ol! Yzərində sьzьltьsьz, nalәsiz, istismarsьz «qəza»-sьz, «sən» -siz, «mən»-siz bir həjat qurmaq ycyn işlər ordusu qommunist nəsli gəlir...

Onlar, o balaçalar qьrmьzь qalstuqlarilə lalə kibi janьrlar. Dynən qomsomol əzəgi onlarь haraja caqьrdь, katib masaja səjkənərək, asta-asta dejirdi:

— Uşaqlar acьq dejirəm, pambuq işində bizim «Qьzьl Şərq» qolxozu qujruqda syrynyr, vaqt qurtarьr, planьmьzьn 100-dən ançaq 24 fajizini jьqmьşьq. Bu ləkədir, bu qomsomol, pioner şə'ninə jaraşmaz. Dyzdyr indijə qədər jьqdьq. Dyzdyr, amma elə ki, jьqdьq Myrsəl 7 kərə işə cьqmadь. Jьqanlarьn da çoqu pambuqu təkə-təkə jьqьr. Hamь qozanьn jekəsinə qacьr. Səliqəsiz iş gərdyk, belə başsojuqluqun nətiçəsidir ki, indi qьzarьrьq, adьmьz qara levhədə, jarьşьmьz pozulur, daha nə istəjirsiniz? Hər işdə ilәri duran «Qara Jazь» kəndi aqsajьr. Gəlin bu gyndən sonra əzbaşьnalьqlь qьraqa qojaq. Bu qara o qaraja bənzəməz. Tənbəlliklə yzymyzy qaralda bilmərik. Hamь gyny, saatь, dəqiqəni buraqmajьr, istifadə edir, jyksəlir, ilәri gedir, Stalin joldaşьn, bəjyk rəhbərimizin səzyny unudubsunuzmu, «syr'əti əksiltmək, aqsamaq demәkdir. Aqsajanlarь isə dəjyrlər!» Əzymyzy toplajaraq, firqəmizin şiarьndan bərk japьşaq: **«Bir qoza da dyzdə qalmasьn!»**

Pionerlər Jəhjənın səsinə birlik və yrəklə səs verdilər. Nojabrьn 29-da 36 nəfərlik 3 pioner briqadasь zəmilərə daraşdь. «Qara jazь» yfyqlərindən geçənin kəlgələri ərijir, şərq aqarьr, balaça mybariz yrəklər ənək sevinçilə dəjynyr işin miqdarь və dəjəri uqrunda dəjyşyrlər. Qahraman, kecdigi sahədə pambuq izi qojmajьr. O, dəstənin ən ilәridə gedənlərindəndir. Jarьş şərtlərinə görə, tə'jin edilən «pioner sahəsi» pambuqdan təmizlənir. Myqavələnin bir şərti pozuldu; sahə 10 gynə joq, 7gynə qurtardь. Pioner briqadalarьnьn bəjyk aqtivliği rajon qomitəsində qejd olundu.

Deqabrьn 6-da dajirənin açь baqьrsaq kibi uzanan daşlь jollarьnda «aq qьzьl» karvanь jyryjyr. Bu karvan kecən karvanlardan bir şejlə fərqlənir: karvanьn çilovdarь pionerlərdir: 104 put ən təmiz pambuq jyklənmiş 4 arabanьn yzərində pionerlər oqujurlar:

«Biz sinəsi alavlarla, qavqalarla dolujuq.
Pionerik, qomsomoluq biz Leninin oqlujuq.
Cəlikdəndir qolumuz
Qommunizma jolumuz
Jenisini qururuq
Kəhnə dynjanь jьqdьq».

Dəmir jol xətti «parlajan bir bьcaq kibi» Uçar stansijasьnь jarьb kecir. Qьrmьzь qapьlь bəjyk ambarlardan sənaje malь təkylyr. 4 atlь furqunlar jyklənərək kənt qooperativlərinə jənəlir, təçhizat mintəqələrinə daqьlьr.

Pambuq sqladь qarşьsьnda aq dəşlykly nəqlijjatcьlar o tərəf bu tərəfə jyjyrylər. Mydir, vaqtьnda vaqon göndərməjən pambuqbirligi myvəkkilinə açьqlanmьşdьr. Uzaq kəntlərdən, geniş tarlalardan jьqьlan pambuq, sqladьn quçaqьna sьqmajьr, pьrtdaşьr, daşьr. Pioner arabalarьnь təqdim edən Jəhjə təhvildara dejir:

— 104 put təmiz pambuq Qara Jazь pionerlərinin adьna jьzьlsьn!..

Pambuqun jьqьlmasьnda joq, həm də əkmə və beçərilməsində coq xidmət etmiş pionerlər dəstə ilə hazьrdьrlar. Qolxozcu və əməkcilər onlarьn, o balaça pambuqcularьn fədakarlьq addьmlarьna alqьş oqujurlar. Bu jeni nəslin bəjyklərlə əl-ələ verib sərf etdigi zərbəci əməgi gələçəkdə bəjyk qəhramanlьqlara başlanqьcьdьr. Mintəqə mydiri yzyny pionerlərə dutur:

— Əlkəmiz bəjyjyr, qələbəni bərkidir. Son qələbə ycyn hyçum hazьrlajьrьq. Sizin zahirədə balaça, həqiqətdə bəjyk qyvvəniz sosializm uqrundakь mybarəzəjə qarьşmaja bil-

məzdi. Өlkənin pambuq asьlьlьqьndan qurtarmasь ycyn cəkdiginiz əməklər, tөkdygynyz tərlər 5—10 il sonra bilavasitə idarə edəçəginiz bөjyk nəhənklərə bina qojur. Siz, qommunist nəslə baqaraq, dynjanьn miljonlarla proletar coçuqlarь fəxr edir: «Odur mənim iləridə gedən dəstəm, odur mənim sьnьfdaş ordum», odur mənim jol joldaşьm, çan və dirilik joldaşьm. Odur dynja inqilabьnьn jenijetmə qahramanlarь... dejirlər. Firqə adьndan sizi təbrik edirəm. Zərbəciliginizi artьrьnьz, qoj sizdən jeni qolxoz nəsli ibrət alsьn...

Pionerlər bununla fəxr etməgə haqlьdьrlar. Onlar işci sьnfьnьn işi uqrunda gənç qyvvələrini verməjə, dinçəlmədən calьşmaqa hazьrdьrlar. Bu onlarьn ən jyksək pedaqozisi və tərbijə prinsipidir. Onlar qolxoz kəndi kibi bir ananьn quçaqьnda, carpьşmada bərkijirlər. Onlar kənt sakitlik və javaşlьqьnь templərlə əvəz edir və edəçəklər.

Qomsomolcu Jəhjə, nail olduqlarь alqьşlara qarşь hec bir şej demədi. O arabanьn yzərinə cьqardьqь 14 jaşlь pionerqa Həmajilə işarə ilə:

— Mən sөzy Məsmə xalanьn zərbəci qьzь Həmajilə verirəm—dejir.

Ilk baqьşda durqun su kibi sakit və aqьr gөrynən Həmajil bomba kibi acьlьr:

— Biz, joldaşlar, jeni həjat qururuq. Planь өdəjirik. Pambuq planьnь kəsrdə qojmajaçaqьz. Bitgi, gynəşdən enerzi əmən kibi biz gənç pionerlər də, Lenin fikrini, dutur və qyvvələniriz.

Qara-Jazь pionerləri cөldə pambuq qozasь qojmajaçaq. Uça pioner səsimizlə dejirik, pambuq planь qolxozumuzun diriligi, kəndimizin isə gələçəgi, jyksəkligidir. Hөkymət eşitsin: biz, pambuq uqrunda bөjyklərdən geri qalmajaçaqьz! Biz, qolxozu mөhkəmlətmək ycyn atalarьmьza hər çyr kөmək edəçəjiz. Pambuq, bizim uça səsimizdir. Qoj səsimiz dynja eşitsin! Biz, өzgə pambuqu almajaçaqьz.

Өzək raport verir.

Joq. Өzək buna qət'ijjən dөzə bilməz. Bu kəsr bizi batьrar. Bu acьqlьqьn sonu ucurumdur. Qomsomol belə dyjynlərdə dajanmamьşdьr. Mintəqənin ən bөjyk kəndində qomsomol tьsbaqa jyryşy gedə bilməz: 31 qomsomolcudan 15-i qolxozdadьr. Qolxozculuqumuz da aqьzda, dildədir, işə gələndə bitərəflərdən təfavyt gөrməjirik. Firqə və qomsomol tapşьrьqlarьnь bu qulaqьmьzdan alьb o qulaqьmьzdan өtyryryk; hec kəs өzyny bərkə verməjir. Yzvi hej'ətinə arxajьndьr, hej'əti yzvynə... Kөkyndən dөnyş lazьmdьr. Başqa өzəklər jarьşьr, qomsomolun səsi dynjanь dutub, bizim өzək bu səsə qarьşa bilməmiş...

Mirzənin iti və tə'sirli cьqьşь Alьnçalь kəndinin qomsomol өzəgi haqqьnda idi. Bu өzəgin işi açьnaçaq halda idi: rəhbərlik xarab olmuş, gənçlər işdən sojumuş, ajlarla içlas olmajьr, direqtivlər nə inki içra olunur, hətta myzakərə də olunmajьrdь. Өzək otaqьnda bir sykut, hərəkətsizlik. Plaqatlarьn rəngi getmiş. Rəsmlər işitməli kibi sararmьş. Sijasi savad kitablarь yzərində əl qalьnlьqьnda toz. Katib traqtor qursundan hələ də qajьtmamьş. Qolxozun hesabdarь, qomsomol yzvy Mahmud gөrməmişlik edərək өzynə 400 əmək gyny jazmьşdь. Tamamilə barabarcьlьq aparmьşdьr. Yzvlər onu şəxsi tənqidə dutanda açьqь dutur. «O, mənim өz işimdir» dejirdi.

Bundan, өzək işində olan bu kəsrlərdən istifadəni unutmajan Haçь Rəsul xoda dyşmyşdy. O qaljanьnь fьsqьrdaraq doqqazlarda gөrynyrdy. Bojnu o qədər də qьnьna girməmişdi. O, vaqtilə qapьsьnda calьşdьrdьqь bə'zi savadsьz joqsullara və ən coq qadьnlara janaşaraq, «nəsihət» verirdi.

— Gөryrsən bolşeviklər adamь elə quruda qojur ha. Qolxoz, qolxoz. Bu da sənin qolxozun gynyn 14 şahьja gəlməjir. Amma mənə işləjəndə hec olmasa tөr-tөkyntydən jejir, axьrda da kəpik-quruş alьrdьn. Gөrərsən qolxozda qalsan gynyn bir abbasьja dyşəçək. Cьq. Cьq get başьna bir carə

tap. Haçь əmin birçə əlym gynyny bilməjir. Baq sonra əzyn peşman olaçaqsan...

Doqrudur tylky baş Haçьnьn tələsinə dyşəsi adam az qalmьşdь. Hətta arx təmizləjən Dajь Rəsul Haçьnьn «nəsihətini» dinləjərək, lapatqa ilə onun disini qьrmьş:

— Sənin kibi çanavarlarьn toruna dyşəsi halьmьz joqdur—demişdi. Lakin Haçьnьn sözləri tə'sirsiz də qalmajьrdь. Manqal başьnda qьzьnaraq, «kişi dyz dejir» dejə təsdiqləjən qujruqlar da joq dəjildi.

Mirzə bu vəzijjəti gərərkən gənçlik qanь başьna vurmuş, qan damarlarь fantan kibi carpmьşdь. Dinçələ bilməjirdi. Onu həddindən artьq «janдьran» hesabdar Mahmudun hərəkəti idi. Mahmud qəzetləri oqumamьş, jeni qərarlardan, əmək gyny haqqьndakь jeni tapşьrьqlardan xəbəri joqdu. O, tam bir barabarlьq aparmaqla hec kəsin qəlbinə dəjmək istəməjir, hər kəs əmək gynynyn azlьqьndan danьşьrdьsa Mahmud onun gynyny artьrmaqda bir cətinlik gərməjirdi. Hər səhər işə cьqanlarьn hər birinə gyn jazьr, onun işləjib-işləmədigi haqqьnda dyşynməgi jadьna salmajьrdь. Rajondan isə gəndərilən tə'limat maşinqada oqunmaz halda jazьlьr və əz vaqtьnda gəlib catmajьrdь.

Mirzənin neçə açьqь dutmasьn, o neçə əsəbiləşməsin ki, Mahmudun səhvi dyşmənlərin, qolcomaqlarьn hərəkətə gəlmələrinə, qolxoz əlejhinə təbliqat aparmalarьna imkan jaradьrdь.

Mirzəni kəndə katib göndərən qomsomolun rajon qomitəsi katibi:

— Get, səndən kəntdə bolşevik mətanəti, inqilabi məhkəmlik, sьnfi ajьqlьq nymunəsi göstərməni gözləjiriz— dejə onu jola salmьşdь.

Mirzə gəldikdən conra, acьlan qapalь içlas sojuq otaqda, qarlь geçədə aparьlmaqьna baqmajaraq, uşaqlar hamьsь qьzьşmьş, tərli-tərli danьşьrlardь. Bu içlas qomsomol qyvvəsini hərəkətə gətirdi. Əzək hyçum ştabьna dəndy, firqə baş xətti əsasьnda işlərin operativ planь dyzyldy.

O gyndən, içlasdan sonra qomsomolcular işə çiddi girişdilər. Jyngyl syvari dəstəsi, təşviqatcь, pioner işcisi, briqadalar, məs'ul nymajəndələr... Hər kəs, yzərinə qojulan planь vaqtьnda ədəməgə çan atьrdь. Onlar «fьlankəs burada dejil, sabah eləjərik, nə tələsirsən? Rəsmi olmasa razьlьq vermərəm...» kibi objeqtiv bəhanələri eşitmək istəməjirlər. Budur 5 gynyn icində qolcomaqlara verilən pambuq tapşьrьqьnьn ədənməsində 27 fajiz ilərilləmə var. Muzdur Rəşid, Lejli xala və başqalarь Mirzəni göryb yzr istəjir, Haçь Rəsullarьn gizlin hijləsindən xəbər verirlər. El savad qurslarьna təkylyb. Kənt myəllimi, kəndə radio gətirmək ycyn məarif şö'bəsilə «əlin cək jaqam çьrьldь» ja dyşmyşlər. O, radio almajьnça kəndə qajьtmajaçaqьnь söjləjir: «Kənt qomsomolu radio istəjir, vəssalam!» Hesabdar Mahmudun səhvlərini dyzəltmək ycyn Mirzə rajondan bir hesabdar caqьrmьşdь. Əmək gynləri gətyrə qajdasьna salьndь. Əvvəllər bu barədə qolxozcular arasьnda «dedi—qodu» dyşdisə də, qolxoz sədri, şura sədri və Mirzə məsələni myzakərə edib ymumi içlasa kecirdilər. Mirzənin izahatь dinlənildi, gətyrə iş qajdasьnьn bytyn qolxozlardakь myvəffəqijjətdən danьşьldь və həkymət tapşьrьqlarь oqundu. Əmək gynləri gətyrə qajdasilə quruldu, tənbəl və dysmənlərin burnu ovuldu...

Qomsomol əzəginin fəalijjəti kəntdə hamьnьn gözynə carpdь. Qolxozun iləridə gedən kytləsi əzəgin ətrafьna toplandь. Jeni firqə sьralarьna verilmiş qolxozcularьn dalьnça qolxozcu gənç qьz və oqlanlar qomsomola daxil olmaqa başladьlar.

Indi, Alьnçalь kəndinə gələnlər hər bir işdə qomsomolun bəjyk jardьmьnь hiss edirlər. Rajon qomitəsi və qəzetlərin caqьrьş və tədbirlərinə Alьnçalь kəndi iki səs uçaldьr. «Qomsomolcu» qolxozu jeni təsərryfat ilinə kecərkən əz işlərindən raport verir.

Gənç bolşeviklər ştabьna göndərilən raportda belə dejilir: «Gənçlərin quruçuluq rolu artьr. Firqəmizin pambuq və qolleqtivləşmə tapşьrьqlarь qomsomolun baş məsələsidir. Biz sosializm quruluşunun syr'ətini artьrmaqa var qyvvəmizi veririk. Qasьm Ismailov qolxozcularьnьn təçribələrini gətyryryk. Sovxozun kəməginə 7 qomsomolcu göndər-

mişik. Işlərimizi jeni qajda ilə qururuq. Biz, qalib cьqarьq! «Kim-kimi» məsələsi kəndimizdə, firqənin rəhbərligi altьnda, qolxozcular və qomsomolun jorulmaz fəalijjətilə sosializmin ləhinə həll olunur. Jeni ildə biz tempimizi daha da artьraçaqьz».

Mynəvvəri dinləjin!

Kim dejərdi ki, kəndin calь-cəpər jerindən cьqmamьş, simafordan o tərəf gəlməmiş uşaqlarь da jada salan vardьr? Bu uzaqdan şəhər toquçularьnьn icindən gəlmiş, gylər yzly bir qadьn, əzək katibindən səz alьr. O, cit fabriqasь qomsomolcularьnьn məktubunu qolxozcu gənçlərə oqujur.

— Uşaqlar 360 dəzgahьmьza işci catmajьr. Hələ gələn il dəzgahlar jarь-jarьja artaçaqdьr. Aşьb daşan Mil dyzy, Myqan pambuqunu toqumaq ycyn adamьmьz azdьr. Gənclərdən 32 nəfər bizə vermənizi xahiş edirik. Biz onlarь usta edəçəjiz. FZŞ-də oqudaçaq, sonra dəzgah basьna qojaçaqьz. O, məktubu qatlajaraq, «loru» dildə şəhərin, fabriqanьn, həjatьndan danьşьr gənçlər maraqla soruşurlar.

— Fabriqa uzaqdadьrmь?

— Necə ajda toqumaqь öjrədirsiniz?

— Sizdə qomsomolcular coqdurmu?

Dolu kibi jaqan bu suallara nymajəndə iti və myfəssəl çavab verir. Kənt qomsomolcularь fabriqanьn xahişini ədəməgə qərar cьqarьr.

Sabahь ajdьn bir pajьz səhərində məktəbli və pionerlərin dəf və şejpur səsi kəndi byrymyşdy. Gənc nəslin qajnar və daşqьn sevinçi bir maj gynyny xatьrladьrdь. Tarla zərbəciləri və traqtorcularь salamlajaraq coçuq şərqilərilə jyryjən qьzьl bir araba 22 nəfər jeni toquçu gənçi dəmir jola, stansijaja gətyryrdy. Onlarьn arasьnda jalьnьz bir nəfər qьz vardь: Mynəvvər! Kypə girən qarьlar Xavər xalanь cimdiklədilər, dymsyklədilər: «A kyjbaş, hara buraqьrsan qьzь? Başьna dəjsin o oqumaq! Gədələrin arasьnda!...»

Mynəvvər bunlarь eşidərmi

O, aqzьndan syt qoqusu kəsilməmiş mybarəzələrin quçaqьna atьlmьşdьr, ilk məktəbi həjat, myəllimi qomsomol özəgidir.

Aprel gynəşi Mynəvvərin qəlbini həqiqətən alavlandьrdь. Mynəvvərin inadь qarşьsьnda qoça qaltaq və qarьlarьn naqqallьqь ərimədjə bilməzdi. O, qomsomol iradəsilə sosializm şəhərinin caqьrьşьna gedirdi.

Ajrьlarkan təhəssyrlə yzyndən ərən anasьna Mynəvvərin çavabь bu idi:

— Ana arxajьn ol. Mən bir sənin joq, həm də qomsomolun qьzьjam. Mən qalib gələçəgəm...

Mynəvvər hansь biliklə FZŞ-jə gəlmişdir?

